# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Azərbaycan Respublikasında sudan ödənişli istifadə Qaydaları”nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Təbii ehtiyatlara görə ödəmələrin, çirkləndirici maddələrin təbii mühitə atılmasına görə ödəmələrin tətbiqi və həmin ödənişlərdən əmələ gələn vəsaitdən istifadə haqqında” 1992-ci il 3 mart tarixli 122 nömrəli, “Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamənin və sudan istifadə tariflərinin təsdiq edilməsi barədə” 2002-ci il 17 iyun tarixli 97 nömrəli, “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin fəaliyyətinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2013-cü il 4 oktyabr tarixli 288 nömrəli qərarlarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2006-cı il 18 mart tarixli 84 nömrəli Qərarının ləğv edilməsi haqqında**

“Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 759-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 685 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 sentyabr tarixli 1587 nömrəli Fərmanının 1.1.4-cü yarımbəndinin və “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikasında sudan ödənişli istifadə Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi su obyektlərindən bilavasitə su götürən hüquqi və ya fiziki şəxslər tərəfindən götürülən suyun həcminə görə ödənişlərin həyata keçirilməsi mexanizminə dair təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Naxçıvan Muxtar Respublikası üzrə sudan ödənişli istifadə qaydaları bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydaların tələbləri nəzərə alınmaqla müəyyən edilir.

4. Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaların 2.2-ci, 3.2-ci, 4.2-ci, 5.3-cü və 6.3-cü bəndlərinə uyğun olaraq sudan istifadə haqqını (tarifləri) iki ay müddətində müəyyən etsin.

5. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaların 2.1-ci, 5.3-cü bəndləri və 3.3.1-3.3.4-cü, 4.3.1-4.3.9-cu yarımbəndləri bu Qərarın 4-cü hissəsində nəzərdə tutulan sudan istifadə haqqı (tariflər) təsdiq edildikdən sonra qüvvəyə minir.

6. “Təbii ehtiyatlara görə ödəmələrin, çirkləndirici maddələrin təbii mühitə atılmasına görə ödəmələrin tətbiqi və həmin ödənişlərdən əmələ gələn vəsaitdən istifadə haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 3 mart tarixli 122 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3-cü hissədə “Su ehtiyatlarından istifadəyə və ətraf” sözləri “Ətraf” sözü ilə və “1-7” rəqəmləri “3-7” rəqəmləri ilə əvəz edilsin;

6.2. 4-cü hissə ləğv edilsin;

6.3. həmin Qərarla təsdiq edilmiş “Təbii ehtiyatlara görə haqq və təbii mühitə atılan zərərli maddələrə görə ödəmələr alınması və bu ödəmələrdən istifadə Qaydaları”nın 12-ci bəndinin ikinci abzasından “yerli su mənbələrindən,” sözləri çıxarılsın və həmin bəndin üçüncü abzası ləğv edilsin;

6.4. həmin Qərarın 1 və 2 nömrəli əlavələri ləğv edilsin.

7. “Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamənin və Azərbaycan Respublikasında sudan istifadə tariflərinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 iyun tarixli 97 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 6, maddə 381; 2004, № 10, maddə 876; 2005, № 6, maddə 558; 2006, № 3, maddə 305; 2008, № 6, maddə 584; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955) 1-ci hissəsi ləğv edilsin.

8. “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin fəaliyyətinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 4 oktyabr tarixli 288 nömrəli Qərarının (Azərbaycan Respublikasının

Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1209; 2018, № 3, maddə 623) 2-ci və 3-cü hissələri ləğv edilsin.

9. “Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 mart tarixli 84 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 305) (2-ci hissə istisna olmaqla) ləğv edilsin.

10. Bu Qərarla təsdiq edilmiş Qaydalarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 17 mart 2022-ci il

№ 95

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2022-ci il 17 mart
tarixli 95 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Azərbaycan Respublikasında sudan ödənişli istifadə

## QAYDALARI

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Su Məcəlləsinin (bundan sonra – Məcəllə) 97-ci maddəsinin üçüncü hissəsinə əsasən hazırlanmışdır və sudan ödənişli istifadə qaydalarını müəyyən edir.

1.2. Bu Qaydaların məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **su obyekti** – relyef formasına uyğun olaraq yerin üstündə və ya yerin təkində suların toplandığı sərhədləri, ölçüləri və xüsusi su rejimi əlamətləri olan təbii formalaşmış landşaft, yaxud geoloji struktur;

1.2.2. **su ehtiyatları** – su obyektlərində yerləşən, istifadə edilən və ya istifadə oluna bilən yerüstü və yeraltı suların həcmi;

1.2.3. **yerüstü sular** – yerin səthində yerləşən yerüstü su axınları, yerüstü sututarları, buzlaqlar və qar örtüklərində olan suların həcmi;

1.2.4. **yeraltı sular** – yerin təkində yerləşən geoloji strukturlarda toplanmış suların həcmi;

1.2.5. **su təsərrüfatı obyekti** – su ehtiyatlarının istifadəsi, bərpası və mühafizəsi ilə əlaqədar yaradılmış sistemlər və qurğular;

1.2.6. **su obyektinin istifadəçisi** – su obyektlərindən istifadə hüququ verilmiş fiziki və ya hüquqi şəxs;

1.2.7. **su istehlakçısı** – öz ehtiyaclarını təmin etmək üçün su obyektlərinin istifadəçisindən su alan fiziki və ya hüquqi şəxs;

1.2.8. **içməli su** – keyfiyyətcə içməli su normalarına uyğun olan su;

1.2.9. **xam su** – emal edilməmiş su;

1.2.10. **su təsərrüfatı sahəsində fəaliyyət göstərən subyektlər (bundan sonra – subyektlər)** – Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (bundan sonra – ETSN), Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (bundan sonra – FHN) Su Ehtiyatları Dövlət Agentliyi (bundan sonra – SEDA), Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti (bundan sonra – “Azmelsutəsərrüfat” ASC), Sudan İstifadəedənlər Birlikləri (bundan sonra – SİB) və “Azərsu” Açıq Səhmdar Cəmiyyəti (bundan sonra – “Azərsu” ASC).

1.3. Sudan ödənişli istifadənin məqsədi su təminatına yönəldilmiş dövlət xərclərini ödəmək, su təsərrüfatı müəssisə, idarə və təşkilatlarının özünümaliyyələşdirmə prinsipi ilə fəaliyyət göstərməsini təmin etmək, su

ehtiyatlarından səmərəli və qənaətlə istifadə olunmasına və suların mühafizəsinin yaxşılaşdırılmasına maddi maraq yaratmaq, suyun dəqiq uçotunu aparmaq və su təsərrüfatı sahəsinə investisiya qoyuluşunu stimullaşdırmaqdan ibarətdir.

1.4. Sudan istifadə haqqı onun keyfiyyətindən, istifadəyə görə təyinatından, su təsərrüfatı obyektlərinin texniki səviyyəsindən, suyun götürülmə və nəqledilmə üsullarından və normativ hüquqi aktlara uyğun olaraq istehsal xərclərinin həcminə təsir edən digər amillərdən asılı olaraq, ayrı-ayrı su təsərrüfatı sistemləri üzrə differensiallaşdırılır.

1.5. Bu Qaydaların 2-ci, 3-cü, 4-cü, 6-cı hissələrində nəzərdə tutulan sudan istifadə haqqı (tariflər) və 5-ci hissəsində nəzərdə tutulan sudan istifadə haqqının (tariflərin) yuxarı həddi bu Qaydaların 2.1-ci, 3.3-cü, 4.3-cü, 5.1-ci, 6.4-cü bəndlərində nəzərdə tutulan təyinatlar və respublika üzrə illik su təsərrüfatı balansının müvafiq göstəriciləri üzrə təhlillərin nəticələri nəzərə alınmaqla Məcəllənin 98-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən müəyyən olunur.

1.6. Sudan istifadəyə görə ödəniş təchiz edilən suyun həcmi nəzərə alınmaqla, təsdiq edilən sudan istifadə haqqı (tariflər) əsasında hesablanır.

1.7. ETSN, FHN, “Azmelsutəsərrüfat” ASC və “Azərsu” ASC bu Qaydaların 2.5-ci, 3.5-ci, 4.12-ci və 6.6-cı bəndlərində nəzərdə tutulan uçot üzrə məlumatlarını aidiyyəti üzrə “Elektron su təsərrüfatı” informasiya sisteminə daxil edirlər və həmin məlumatların mütəmadi yenilənməsini təmin edirlər.

1.8. Bələdiyyələrin su təsərrüfatı obyektlərində sudan ödənişli istifadə qaydaları “Bələdiyyələrin su təsərrüfatı haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla bələdiyyə aktları ilə müəyyən edilir.

1.9. Bələdiyyə mülkiyyətində olan su obyektlərində sudan istifadə haqqı Məcəllənin 98-ci maddəsinə uyğun olaraq bələdiyyələr tərəfindən müəyyən edilir.

1.10. Xüsusi mülkiyyətdə olan su obyektlərində sudan istifadə haqqı Məcəllənin 98-ci maddəsinə uyğun olaraq mülkiyyətçilərlə su istehlakçıları arasında bağlanılmış müqavilə əsasında müəyyən edilir.

1.11. Məcəllənin 36-cı maddəsinə əsasən ümumi istifadədə olan, istifadəsi hamı üçün mümkün və açıq olan su obyektlərindən fiziki şəxslər öz ehtiyaclarını təmin etmək məqsədilə (çimərlik, qayıqla gəzinti, idman, balıq və digər su bioresurslarının həvəskar ovu, mal-qaranın suvarılması, texniki qurğulardan istifadə etmədən sugötürmə və s.) ödənişsiz istifadə edirlər.

1.12. Torpaq sahibləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 28 dekabr tarixli 238 nömrəli Qərarı ilə təsdiq edilmiş “Torpaq sahiblərinin onlara məxsus torpaq sahələrinin hüdudlarında öz ehtiyaclarını ödəmək üçün yerin təkindən istifadə Qaydaları”na uyğun olaraq onlara

məxsus torpaq sahələrinin hüdudlarında öz ehtiyaclarını ödəmək üçün mərkəzləşdirilmiş su təchizatı mənbəyi olmayan birinci təzyiqsiz sulu horizonta quyuların qazılmasını və istismarını həyata keçirə bilərlər. Torpaq sahibləri onlara məxsus torpaq sahələrinin hüdudlarında həmin Qaydalarda nəzərdə tutulan yerin təkindən istifadəyə görə ödənişlərdən azaddırlar.

1.13. Məcəllənin 80-ci maddəsinə əsasən yanğından mühafizə ehtiyacları üçün bütün su obyektlərindən tələb olunan həcmdə və ödənişsiz su götürülməsinə yol verilir.

1.14. Bu Qaydalarda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş mənaları ifadə edir.

## 2. Su obyektləri üzrə sudan ödənişli istifadə

2.1. Bu Qaydaların 2.4-cü bəndinin tələbləri nəzərə alınmaqla, texniki qurğular və avadanlıqlar tətbiq etməklə, su obyektlərindən xüsusi məqsədlər üçün bilavasitə su götürən hüquqi və ya fiziki şəxslər tərəfindən götürülən suyun həcminə görə ödənişlər həyata keçirilir.

2.2. Su obyektlərindən xüsusi məqsədlər üçün su götürülməsinə görə ödəniş təsdiq edilən sudan istifadə haqqı (tariflər) əsasında hesablanır.

2.3. Su obyektlərindən xüsusi məqsədlər üçün su götürülməsinə görə ödəniş ətraf mühitin mühafizəsi üzrə dövlət fonduna ödənilir.

2.4. Məcəllənin 18-ci maddəsinin ikinci hissəsinə əsasən Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 685 nömrəli Fərmanının 2.25-2.27-ci bəndlərinə uyğun olaraq təbii su mənbələrindən (su obyektlərindən) aşağıdakı məqsədlərlə götürülən suya görə ödəniş tutulmur:

2.4.1. SEDA-nın və “Azmelsutəsərrüfat” ASC-nin emal edilməmiş su ilə təmin edilməsi;

2.4.2. “Azərsu” ASC tərəfindən içməli su təchizatı;

2.4.3. “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti (bundan sonra - “Azərenerji” ASC) tərəfindən elektrik enerjisinin istehsalı üçün sudan istifadə edilməsi.

2.5. Su obyektləri üzrə su ehtiyatlarının (yerüstü və yeraltı sular bölmələri üzrə) uçotunun aparılmasını, sudan istifadə qrafiklərinə əməl olunmasına və ödənişlərin aparılmasına nəzarəti ETSN həyata keçirir.

## 3. SEDA-nın balansında olan su təsərrüfatı obyektləri üzrə sudan ödənişli istifadə

3.1. SEDA-nın balansında olan su təsərrüfatı obyektlərindən suyun götürülməsinə görə su təsərrüfatı obyektlərinin istismarının təşkili, onların işlək vəziyyətdə saxlanılması, etibarlı mühafizəsinin təmin edilməsi və

texniki vəziyyətinə müntəzəm nəzarətin həyata keçirilməsinə tələb olunan xərclərin qismən qarşılanması məqsədilə müqavilə əsasında SEDA-nın xüsusi hesabına ödənişlər nəzərdə tutulur.

3.2. Ödənişlər təsdiq edilən sudan istifadə haqqı (tariflər) əsasında SEDA-nın balansında olan su təsərrüfatı obyektlərindən götürülən suyun həcminə görə hesablanır.

3.3. SEDA-nın balansında olan su təsərrüfatı obyektlərindən götürülən suyun həcminə görə ödənişlər aşağıdakı subyektlər və su istehlakçıları tərəfindən həyata keçirilir:

3.3.1. xam su təchizatını həyata keçirmək üçün – "Azmelsutəsərrüfat" ASC;

3.3.2. içməli su təchizatını həyata keçirmək məqsədilə – "Azərsu" ASC;

3.3.3. elektrik enerjisi hasilatı və elektrik stansiyalarının soyuducu sistemi üçün götürdüyü suya görə – "Azərenerji" ASC;

3.3.4. texniki qurğular və avadanlıqlar tətbiq edilməklə su götürən digər fiziki və ya hüquqi şəxslər.

3.4. Subyektlərin və su istehlakçılarının təyinatı üzrə su ilə təmin edilməsi SEDA ilə onlar arasında bağlanılan, aylar üzrə sudan istifadə qrafikini özündə əks etdirən müqavilə əsasında həyata keçirilir (4 nömrəli əlavə).

3.5. SEDA-nın balansında olan su təsərrüfatı obyektlərindən suyun götürülməsi üzrə uçotun aparılması, sudan istifadə qrafiklərinə əməl olunmasına və ödənişlərin aparılmasına nəzarət FHN tərəfindən həyata keçirilir.

## 4. "Azmelsutəsərrüfat" ASC-nin balansında olan su təsərrüfatı obyektləri üzrə sudan ödənişli istifadə

4.1. "Azmelsutəsərrüfat" ASC balansında olan su təsərrüfatı obyektləri vasitəsilə subyektləri və su istehlakçılarını ödənişli əsaslarla xam su ilə təchiz edir.

4.2. Sudan istifadəyə görə ödənişlər təsdiq edilən sudan istifadə haqqı (tariflər) əsasında "Azmelsutəsərrüfat" ASC-nin balansında olan su təsərrüfatı obyektlərindən götürülən suyun həcminə uyğun hesablanır. Bu Qaydaların 4.3.4-cü və 4.3.5-ci yarımbəndlərinə münasibətdə suölçən quraşdırılmadığı halda, verilən suyun həcmi "Azmelsutəsərrüfat" ASC və su istehlakçıları tərəfindən müvafiq aktla təsdiq edilir.

4.3. Aşağıdakı subyektlər və su istehlakçıları tərəfindən götürülən suyun həcminə görə "Azmelsutəsərrüfat" ASC-yə ödənişlər həyata keçirilir:

4.3.1. təyinatı üzrə subyektləri su ehtiyatları ilə təmin etmək məqsədilə məcradankənar anbarlara verilən suyun nəqlinə görə – SEDA;

4.3.2. içməli su təchizatını həyata keçirmək məqsədilə – “Azərsu” ASC;

4.3.3. əkin, həyətyanı və bağ sahələrinin (bundan sonra – əkin sahələrinin) suvarma suyu ilə təmin edilməsi məqsədilə – SİB;

4.3.4. əkin sahələrinin xam su ilə təchizatı məqsədilə – kənd təsərrüfatı istehsalçıları;

4.3.5. qış otlaq sahələrinin (örüşlərin) istifadəçiləri;

4.3.6. təbii və ya süni yaradılmış su hövzələrində balıqçılıq təsərrüfatı ilə məşğul olan fiziki və hüquqi şəxslər;

4.3.7. ev təsərrüfatları;

4.3.8. sənaye müəssisələri;

4.3.9. su götürən digər hüquqi və ya fiziki şəxslər.

4.4. SİB-ə suyun verilməsi “Sudan İstifadəedənlər Birliyinin xidmət göstərdiyi ərazidə yerləşən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin Birliyin uzunmüddətli istifadəsinə verilməsi şərtləri və bu şərtlər pozulduğu halda onların geri alınması Qaydası”nın, “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə Sudan İstifadəedənlər Birliyi arasında su təchizatı üzrə sazişin forması”nın və “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə Sudan İstifadəedənlər Birliyi arasında su təchizatı üzrə sazişə uyğun olaraq bağlanılan illik müqavilənin forması”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 18 iyul tarixli 138 nömrəli Qərarına əsasən tənzimlənir.

4.5. Subyektlərə (SİB istisna olmaqla) və su istehlakçılarına suyun verilməsi “Azmelsutəsərrüfat” ASC ilə onlar arasında bağlanılan, aylar üzrə sudan istifadə qrafikini özündə əks etdirən müqavilə əsasında həyata keçirilir (1, 2 və 3 nömrəli əlavələr).

4.6. Müqavilə üzrə suyun verilməsi və istifadə olunması barədə aylıq hesabat “Azmelsutəsərrüfat” ASC-nin su təsərrüfatı istismar təşkilatları, subyektlər və su istehlakçıları tərəfindən təsdiq edilir. Bu hesabatlar əsasında hər suvarmadan sonra və ayda bir dəfə bu Qaydaların 1, 2 və 3 nömrəli əlavələrində qeyd edilən müvafiq formada akt tərtib olunur.

4.7. Subyektlər və su istehlakçıları götürülən suyun dəyərini növbəti ayın 5-dək ödəyirlər.

4.8. “Azmelsutəsərrüfat” ASC-nin su təsərrüfatı istismar təşkilatları tərəfindən xam su təchizatı məqsədilə suyun götürülməsi aşağıdakı hədlərdə təmin olunur:

4.8.1. sərhəd çaylarından – Azərbaycan Respublikasının qonşu dövlətlərlə bağladığı sazişlərlə müəyyən edilmiş su limitləri həddində;

4.8.2. Azərbaycan Respublikasının çaylarından – 75 faiz təminatlı illik su axımı həddində;

4.8.3. digər su mənbələrindən – təsdiq olunmuş istifadə limitləri həddində.

4.9. Su təminatı bu Qaydaların 4.8-ci bəndində qeyd edilən hədlərdən aşağı olduqda (mənbədə su çatışmadığı hallarda), “Azmelsutəsərrüfat” ASC-nin su təsərrüfatı istismar təşkilatları subyektləri və su istehlakçılarını 30 (otuz) təqvim günü əvvəlcədən (fors-major halları istisna olmaqla) xəbərdar etməklə, verilən suyun miqdarını mütənasib olaraq azaldırlar və əhalinin içməli suya olan tələbatını nəzərə almaq şərtilə bərabər təminat prinsipinə əsaslanaraq buraxılmasını təmin edirlər.

4.10. Subyektlərə və su istehlakçılarına veriləcək suyun həcmi su mənbəyinin və suvarma sisteminin imkanları nəzərə alınmaqla müəyyən edilir və tərəflər arasında bağlanılmış müqavilədə göstərilir.

4.11. Subyektlər və su istehlakçıları götürülən suyun həcminin dəyişməsi ilə əlaqədar təkliflərini su verilməsinə başlanmazdan azı 30 (otuz) təqvim günü əvvəl “Azmelsutəsərrüfat” ASC-nin su təsərrüfatı istismar təşkilatına təqdim etməlidirlər.

4.12. Xidmət göstərdiyi ərazilərdə suyun təchizatı üzrə uçotun (suların istifadəsi bölməsi üzrə) aparılması (ETSN (yerüstü və yeraltı sular bölmələri üzrə) və FHN ilə razılaşdırmaqla), sudan istifadə qrafiklərinə əməl olunmasına və ödənişlərin aparılmasına, habelə bu Qaydaların 5.4-cü bəndində nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə nəzarət “Azmelsutəsərrüfat” ASC tərəfindən həyata keçirilir.

## 5. SİB üzrə sudan ödənişli istifadə

5.1. SİB tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi ödənişli əsaslarla həyata keçirilir.

5.2. Xidmət göstərdiyi ərazilərdə əkin sahələrinin suvarma suyu ilə təchizatı SİB ilə onun üzvləri və ya digər kənd təsərrüfatı istehsalçıları arasında bağlanılan, aylar üzrə sudan istifadə qrafikini özündə əks etdirən müqavilə əsasında həyata keçirilir.

5.3. SİB əkin sahələrinə verilən suvarma suyuna görə təsdiq edilən sudan istifadə haqqından (tarifindən) çox olmayaraq sərbəst qiymətlər müəyyən edir.

5.4. Xidmət göstərdiyi ərazilərdə suvarma suyunun təchizatı üzrə uçotun aparılması, su istehlakçılarının siyahısının müəyyənləşdirilməsi, sudan istifadə qrafiklərinə əməl olunmasına və ödənişlərin aparılmasına nəzarət SİB tərəfindən həyata keçirilir.

5.5. SİB-in əkin sahələrinin suvarılması üçün verdiyi suyun həcmi suölçənlə müəyyən edilir. Suölçən quraşdırılmadığı hallarda, verilən suyun həcmi SİB və su istehlakçıları tərəfindən müvafiq aktla təsdiq edilir.

## 6. “Azərsu” ASC üzrə sudan ödənişli istifadə

6.1. “Azərsu” ASC fəaliyyət istiqamətlərinə uyğun olaraq su istehlakçılarını mərkəzləşdirilmiş qaydada ödənişli əsaslarla içməli su ilə təchiz edir.

6.2. “Azərsu” ASC tərəfindən su istehlakçısına verilən suyun həcmi “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyul tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş “Sudan istifadə Qaydaları”na əsasən müəyyənləşdirilir.

6.3. Su istehlakçıları tərəfindən istifadə olunan içməli suyun həcminə görə ödəniş təsdiq edilən sudan istifadə haqqı (tariflər) əsasında hesablanır.

6.4. İstifadə olunan içməli suyun həcminə görə “Azərsu” ASC-yə ödənişlər aşağıdakı istehlakçı qruplar tərəfindən həyata keçirilir:

6.4.1. əhali istehlakçı qrup (məişət abonentləri) – yaşayış binalarının mənzillərində, yaşayış evlərində, həmçinin qarajlarda, həyətyanı və bağ sahələrində içməli sudan məişət ehtiyacları üçün (suvarma da daxil olmaqla) istifadə edən istehlakçılar (hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər istisna olmaqla);

6.4.2. qeyri-əhali istehlakçı qrupu – istifadə təyinatından asılı olmayaraq, bu Qaydaların 6.4.1-ci və 6.4.3-cü yarımbəndlərində nəzərdə tutulmayan bütün istehlakçılar;

6.4.3. sudan xammal kimi istifadə edən istehlakçı qrupu – içməli sudan xammal kimi istifadə etməklə içkilərin sənaye üsulu ilə istehsalını həyata keçirən qeyri-xidmət sahələri.

6.5. Bu Qaydaların 6.4.3-cü yarımbəndində qeyd edilən istehlakçı qrup üçün tullantı sularının axıdılması xidmətinə görə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən müəyyən edilən haqq sudan istifadə haqqına (tarifə) daxildir.

6.6. Xidmət göstərdiyi ərazilərdə içməli suyun təchizatı və tullantı sularının axıdılması üzrə uçotun aparılması, istifadəçilərin siyahısının müəyyənləşdirilməsi, ödənişlərin aparılmasına nəzarət “Azərsu” ASC tərəfindən həyata keçirilir.

“Azərbaycan Respublikasında
sudan ödənişli istifadə Qaydaları”na

**1 nömrəli əlavə**

## I. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatları ilə kənd təsərrüfatı istehsalçıları arasında əkin, həyətyanı və bağ sahələrinin suvarılması məqsədilə suvarma suyunun verilməsi üzrə

## MÜQAVİLƏ

**(nümunəvi forma)**

“_____” ________________ 20____ il

____________________________________________________________

(su verən təşkilatın adı)

Bundan sonra Müqavilənin mətnində **“İcraçı”** adlanan

____________________________________________________________

(vəzifəsi, soyadı, adı, atasının adı)

şəxsində bir tərəfdən, __________________________________________

(su istehlakçısının adı)

Bundan sonra Müqavilənin mətnində **“Sifarişçi”** adlanan

____________________________________________________________

(vəzifəsi, soyadı, adı, atasının adı)

____________________________________________________________

şəxsində digər tərəfdən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20___ il ___________ tarixli _____ nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında sudan ödənişli istifadə Qaydaları”na uyğun olaraq suvarılan əkin, həyətyanı və bağ sahələrinə suyun verilməsi və qəbul edilməsi məqsədilə bu Müqaviləni bağlayırıq.

Sifarişçinin suvarılan əkin, həyətyanı və bağ sahələrində 20_____ ildə aparılacaq əkinlərin strukturu:

| Əkinlər | Əkin altında olan suvarılacaq sahələr (hektar) |
|---|---|
| Taxıl | |
| Pambıq | |
| Yem bitkiləri | |
| Çoxillik əkmələr | |
| Bostan-tərəvəz | |
| Həyətyanı sahələr | |
| Digərləri | |
| Cəmi | |

**Tərəflərin öhdəlikləri**

**1. İcraçının öhdəlikləri:**

1.1. su mənbələrinin təsdiq edilmiş limitlərinə və sudan istifadə planlarına əsasən Sifarişçiyə il ərzində (Müqavilə müddətində) onun əkin altında olan suvarılan sahəsinə aşağıda qeyd edilən qrafikə uyğun olaraq suvarma suyu vermək:

**Sifarişçiyə verilən suyun aylar üzrə bölgüsü (min kubmetr)**

| I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | |

1.2. balansında olan su təminatı vasitələrini və onların üzərində olan hidrotexniki qurğuları saz və işlək vəziyyətdə saxlamaq.

**Qeyd.** Təbii şəraitdən asılı olaraq suvarma normaları, verilən suyun həcmi və müddəti tərəflərin razılığı ilə dəyişdirilə bilər.

**2. Sifarişçinin öhdəlikləri:**

2.1. ona xidmət edən su təminatı vasitələrinin və onların üzərində olan hidrotexniki qurğuların korlanmasına və dağıdılmasına yol verməmək;

2.2. suvarma suyundan səmərəli və qənaətlə istifadə olunmasını təmin etmək, aqrotexniki tədbirləri vaxtında həyata keçirmək, torpaqların meliorativ vəziyyətinin pisləşməsinə yol verməmək;

2.3. istifadə edilmiş suyun hər kubmetri üçün müəyyən edilmiş tariflərə uyğun olaraq _____ manat məbləğində haqqı İcraçıya ödəmək.

**Qeydlər:**

1. Sifarişçiyə müqavilədə nəzərdə tutulan həddən artıq su verilərsə, bu barədə səbəbi qeyd olunmaqla xüsusi akt tərtib olunmalıdır.

2. Müqavilədə qeyd olunanlardan artıq su götürülərsə, verilən suyun dəyəri müəyyən olunmuş tarifin 1:1 nisbətində ödənilməlidir.

3. Sifarişçi nəzərdə tutulmuş sudan imtina edərsə, bu barədə müqavilədə nəzərdə tutulmuş suyun verilməsi tarixindən ən azı 7 (yeddi) gün əvvəl İcraçını xəbərdar etməlidir.

4. Sifarişçi götürülən suyun həcminin dəyişməsi ilə əlaqədar təkliflərini su verilməsinə başlanmazdan ən azı 30 (otuz) gün əvvəl İcraçıya təqdim etməlidir. Bu halda bu Müqaviləyə müvafiq dəyişiklik edilir. Əks təqdirdə, sifarişin yerinə yetirilməsinə İcraçı zəmanət verməyə bilər.

## 3. Müqavilə üzrə qarşılıqlı hesablaşma

3.1. Sifarişçiyə verilən suyun hesabatı aparılır və İcraçı ilə Sifarişçi arasında müvafiq aktla sənədləşdirilir.

3.2. Sifarişçi verilən suyun dəyərini növbəti ayın 5-dək ödəyir.

## 4. Tərəflərin məsuliyyəti

4.1. Bu Müqavilədə qeyd edilən öhdəliklər yerinə yetirilmədikdə, İcraçı və Sifarişçi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun məsuliyyət daşıyırlar. Bu Müqavilədə qeyd edilən öhdəliklərin yerinə yetirilməməsində inzibati xəta əlamətləri olduqda, İcraçı və Sifarişçi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun məsuliyyət daşıyırlar.

4.2. Müqavilə üzrə yaranan mübahisələr məhkəmə qaydasında həll edilir.

4.3. Müqavilə 2 nüsxədə tərtib edilmişdir, bunlardan biri İcraçıda, digəri isə Sifarişçidə qalır.

4.4. Müqavilənin müddəti:

20____ il “___” _________ tarixindən başlayır;

20____ il “___” _________ tarixində qurtarır.

4.5. Tərəflərin hüquqi ünvanları və hesablaşma hesablarının nömrələri:

**İcraçı:** ____________________________________________________

**Sifarişçi:** __________________________________________________

| | |
|---|---|
| **İcraçı** | **Sifarişçi** |
| **M.Y.** | **M.Y.** |

## II. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatları ilə kənd təsərrüfatı istehsalçıları arasında suvarma suyunun verilməsi üzrə aktın nümunəvi forması

**İcraçı:** ______________________________________________________
(Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatının adı)

**Sifarişçi:** ____________________________________________________
(su istehlakçısının adı)

_________________________________________tarixinə əkin, həyətyanı və bağ sahələrinin suvarılmasına verilən suyun həcmi və dəyəri barədə

**AKT**

1. Verilmiş suyun həcmi ____________________________ kubmetr.
2. 1 kubmetr sudan istifadənin tarifi _____________________ manat.
3. Ödəniləcək vəsaitin məbləği ________________________ manat.

| **İcraçı:** | **Sifarişçi** |
|---|---|
| **1.** ________________________ | **1.** ________________________ |
| **2.** ________________________ | **2.** ________________________ |
| **3.** ________________________ | **3.** ________________________ |
| **4.** ________________________ | **4.** ________________________ |
| **5.** ________________________ | **5.** ________________________ |

| **İcraçı** | **Sifarişçi** |
|---|---|
| **M.Y.** | **M.Y.** |

“Azərbaycan Respublikasında
sudan ödənişli istifadə Qaydaları”na

**2 nömrəli əlavə**

## I. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatları ilə qış otlaq sahələrinin (örüşlərin) istifadəçiləri arasında su təminatı üzrə

## MÜQAVİLƏ
**(nümunəvi forma)**

“_____” _______________ 20____ il

_______________________________________________________________
(su verən təşkilatın adı)

Bundan sonra Müqavilənin mətnində **“İcraçı”** adlanan

_______________________________________________________________
(vəzifəsi, soyadı, adı, atasının adı)

şəxsində bir tərəfdən, ___________________________________________
(su istehlakçısının adı)

Bundan sonra Müqavilənin mətnində **“Sifarişçi”** adlanan

_______________________________________________________________
(vəzifəsi, soyadı, adı, atasının adı)

_______________________________________________________________

şəxsində digər tərəfdən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20___ il _________ tarixli ____ nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında sudan ödənişli istifadə Qaydaları”na uyğun olaraq 20____ ildə qış otlaq sahələrinə (örüşlərə) suyun verilməsi və qəbul edilməsi məqsədilə bu Müqaviləni bağlayırıq.

### Tərəflərin öhdəlikləri

### 1. İcraçının öhdəlikləri:

1.1. su mənbələrinin təsdiq edilmiş limitlərinə və sudan istifadə planlarına əsasən Sifarişçiyə il ərzində (Müqavilə müddətində) aşağıda qeyd edilən qış otlaq sahələri (örüşlər) üçün su vermək:

| Təsərrüfatın adı | Təhkim olunmuş qış otlaq sahəsinin (örüşün) adı | Sahəsi (hektar) |
|---|---|---|
| | | |

**Sifarişçiyə verilən suyun aylar üzrə bölgüsü (min kubmetr)**

| I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | |

1.2. balansında olan qış otlaqlarının (örüşlərin) su təminatı vasitələrini və onların üzərində olan hidrotexniki qurğuları saz və işlək vəziyyətdə saxlamaq.

### 2. Sifarişçinin öhdəlikləri:

2.1. istifadə etdiyi su təminatı vasitələrinin və onların üzərində olan hidrotexniki qurğuların korlanmasına və dağıdılmasına yol verməmək;
2.2. sudan səmərəli və qənaətlə istifadə etmək, onun lüzumsuz axıdılmasına yol verməmək;
2.3. istifadə edilmiş suyun hər kubmetri üçün müəyyən edilmiş tariflərə uyğun olaraq _____ manat məbləğində haqqı İcraçıya ödəmək.

**Qeydlər:**
1. Sifarişçi nəzərdə tutulmuş sudan imtina etdikdə, bu barədə ən geci 7 (yeddi) gün əvvəl İcraçını xəbərdar etməlidir.
2. Sifarişçi götürülən suyun həcminin dəyişməsi ilə əlaqədar təkliflərini su verilməsinə başlanmazdan ən azı 30 (otuz) gün əvvəl İcraçıya təqdim etməlidir. Bu halda bu Müqavilədə müvafiq dəyişiklik edilir. Əks təqdirdə, sifarişin yerinə yetirilməsinə İcraçı zəmanət verməyə bilər.

### 3. Müqavilə üzrə qarşılıqlı hesablaşma

3.1. Sifarişçiyə verilən suyun hesabatı hər ay aparılır və İcraçı ilə Sifarişçi arasında müvafiq aktla sənədləşdirilir.
3.2. Sifarişçi verilən suyun dəyərini növbəti ayın 5-dək ödəyir.

### 4. Tərəflərin məsuliyyəti

4.1. Bu Müqavilədə qeyd edilən öhdəliklər yerinə yetirilmədikdə, İcraçı və Sifarişçi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun məsuliyyət daşıyırlar. Bu Müqavilədə qeyd edilən öhdəliklərin yerinə yetirilməməsində inzibati xəta əlamətləri olduqda, İcraçı və Sifarişçi

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun məsuliyyət daşıyırlar.

4.2. Müqavilə üzrə yaranan mübahisələr məhkəmə qaydasında həll edilir.

4.3. Müqavilə 2 nüsxədə tərtib edilmişdir, bunlardan biri İcraçıda, digəri isə Sifarişçidə qalır.

4.4. Müqavilənin müddəti:

20____ il "__"_________ tarixindən başlayır;

20____ il "__"_________ tarixində qurtarır.

4.5. Tərəflərin hüquqi ünvanları və hesablaşma hesablarının nömrələri:

**İcraçı:** ____________________________________________

**Sifarişçi:** ____________________________________________

**İcraçı** **Sifarişçi**

**M.Y.** **M.Y.**

**II. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatları ilə qış otlaq sahələrinin (örüşlərin) istifadəçiləri arasında su təminatı üzrə aktın nümunəvi forması**

**İcraçı:** ____________________________________________

(Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatının adı)

**Sifarişçi:** ____________________________________________

(su istehlakçısının adı)

____________________________________________

tarixinə qış otlaq sahələrinə (örüşlərə) verilmiş suyun həcmi və dəyəri barədə

**AKT**

1. Su ilə təmin olunmuş qış otlaq sahəsi (örüş) ____________ hektar.

2. Qış otlaq sahəsinə (örüşə) verilmiş suyun həcmi _______ kubmetr.

3. Qış otlaq sahəsinə (örüşə) verilən sudan istifadənin tarifi ________ manat/kubmetr.

4. Ödəniləcək vəsaitin məbləği ______________________________ manat.

**İcraçı:**
**1.** ______________________________
**2.** ______________________________
**3.** ______________________________
**4.** ______________________________
**5.** ______________________________

**Sifarişçi**
**1.** ______________________________
**2.** ______________________________
**3.** ______________________________
**4.** ______________________________
**5.** ______________________________

**İcraçı** **Sifarişçi**

**M.Y.** **M.Y.**

“Azərbaycan Respublikasında
sudan ödənişli istifadə Qaydaları”na

**3 nömrəli əlavə**

**I. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatları ilə su istehlakçıları arasında təyinatı üzrə subyektləri su ehtiyatları ilə təmin etmək məqsədilə məcradankənar su anbarına emal edilməmiş suyun nəqlinə görə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinə, içməli su təchizatını həyata keçirmək məqsədilə “Azərsu” Açıq Səhmdar Cəmiyyətinə, sənaye müəssisələrinə, balıqçılıq təsərrüfatı ilə məşğul olan fiziki və hüquqi şəxslərə və istifadə təyinatından asılı olmayaraq, digər təsərrüfatlara suyun verilməsi üzrə**

**MÜQAVİLƏ**
**(nümunəvi forma)**

“_____” ________________ 20____ il

_________________________________________________________________
(su verən təşkilatın adı)

Bundan sonra Müqavilənin mətnində **“İcraçı”** adlanan

_________________________________________________________________
(vəzifəsi, soyadı, adı, atasının adı)

şəxsində bir tərəfdən, _____________________________________________
(su istehlakçısının adı)

Bundan sonra Müqavilənin mətnində **“Sifarişçi”** adlanan

_________________________________________________________________
(vəzifəsi, soyadı, adı, atasının adı)

_________________________________________________________________

şəxsində digər tərəfdən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20___ il _________ tarixli ___ nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında sudan ödənişli istifadə Qaydaları”na uyğun olaraq 20____ ildə suyun verilməsi və qəbul edilməsi məqsədilə bu Müqaviləni bağlayırıq.

## Tərəflərin öhdəlikləri

### 1. İcraçının öhdəlikləri:

1.1. su mənbələrinin təsdiq edilmiş limitlərinə və sudan istifadə planlarına əsasən Sifarişçiyə il ərzində (Müqavilə müddətində) aşağıda qeyd edilən qrafikə uyğun su vermək:

**Sifarişçiyə verilən suyun aylar üzrə bölgüsü (min kubmetr)**

| I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | |

1.2. balansında olan su təminatı vasitələrini və onların üzərində olan hidrotexniki qurğuları saz və işlək vəziyyətdə saxlamaq.

**Qeyd.** Təbii şəraitdən asılı olaraq verilən suyun həcmi və müddəti tərəflərin razılığı ilə dəyişdirilə bilər.

### 2. Sifarişçinin öhdəlikləri:

2.1. sudan səmərəli və qənaətlə istifadə olunmasını təmin etmək;

2.2. suyun hər kubmetri üçün müəyyən edilmiş tariflərə uyğun olaraq _____ manat məbləğində haqqı İcraçıya ödəmək.

**Qeydlər:**

1. Sifarişçiyə Müqavilədə nəzərdə tutulan həddən artıq su verildikdə, bu barədə səbəbi qeyd olunmaqla xüsusi akt tərtib olunmalıdır.
2. Müqavilədə qeyd olunanlardan artıq su götürüldükdə, verilən suyun dəyəri müəyyən olunmuş tarifin 1:1 nisbətində ödənilməlidir.
3. Sifarişçi nəzərdə tutulmuş sudan imtina etdikdə, bu barədə Müqavilədə nəzərdə tutulmuş suyun verilməsi tarixindən ən azı 7 (yeddi) gün əvvəl İcraçını xəbərdar etməlidir.
4. Sifarişçi götürülən suyun həcminin dəyişməsi ilə əlaqədar təkliflərini su verilməsinə başlanmazdan ən azı 30 (otuz) gün əvvəl İcraçıya təqdim etməlidir. Bu halda bu Müqavilədə müvafiq dəyişiklik edilir. Əks təqdirdə, sifarişin yerinə yetirilməsinə İcraçı zəmanət verməyə bilər.

### 3. Müqavilə üzrə qarşılıqlı hesablaşma

3.1. Sifarişçiyə verilən suyun hesabatı hər ay aparılır və İcraçı ilə Sifarişçi arasında müvafiq aktla sənədləşdirilir.

3.2. Sifarişçi verilən suyun dəyərini növbəti ayın 5-dək ödəyir.

**4. Tərəflərin məsuliyyəti**

4.1. Bu Müqavilədə qeyd edilən öhdəliklər yerinə yetirilmədikdə, İcraçı və Sifarişçi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun məsuliyyət daşıyırlar. Bu Müqavilədə qeyd edilən öhdəliklərin yerinə yetirilməməsində inzibati xəta əlamətləri olduqda, İcraçı və Sifarişçi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun məsuliyyət daşıyırlar.

4.2. Müqavilə üzrə yaranan mübahisələr məhkəmə qaydasında həll edilir.

4.3. Müqavilə 2 nüsxədə tərtib edilmişdir, bunlardan biri İcraçıda, digəri isə Sifarişçidə qalır.

4.4. Müqavilənin müddəti:

20____ il “__”_________ tarixindən başlayır;

20____ il “__”_________ tarixində qurtarır.

4.5. Tərəflərin hüquqi ünvanları və hesablaşma hesablarının nömrələri:

**İcraçı:** ____________________________________________________

**Sifarişçi:** __________________________________________________

**İcraçı** **Sifarişçi**

**M.Y.** **M.Y.**

**II. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatları ilə su istehlakçıları arasında təyinatı üzrə subyektləri su ehtiyatları ilə təmin etmək məqsədilə məcradankənar su anbarına emal edilməmiş suyun nəqlinə görə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinə, içməli su təchizatını həyata keçirmək məqsədilə “Azərsu” Açıq Səhmdar Cəmiyyətinə, sənaye müəssisələrinə, balıqçılıq təsərrüfatı ilə məşğul olan fiziki və hüquqi şəxslərə və istifadə təyinatından asılı olmayaraq digər təsərrüfatlara suyun verilməsi üzrə aktın nümunəvi forması**

**İcraçı:** ____________________________________________________

(Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatının adı)

**Sifarişçi:** __________________________________________________

(su istehlakçısının adı)

________________________ tarixinə verilmiş suyun həcmi və dəyəri barədə

**AKT**

1. Verilmiş suyun həcmi ______________________________ kubmetr.
2. 1 kubmetr sudan istifadənin tarifi ______________________ manat.
3. Ödəniləcək vəsaitin məbləği __________________________ manat.

| **İcraçı:** | **Sifarişçi** |
|---|---|
| **1.** ____________________ | **1.** ____________________ |
| **2.** ____________________ | **2.** ____________________ |
| **3.** ____________________ | **3.** ____________________ |
| **4.** ____________________ | **4.** ____________________ |
| **5.** ____________________ | **5.** ____________________ |

**İcraçı** **Sifarişçi**

**M.Y.** **M.Y.**

**4 nömrəli əlavə**

## I. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyi tərəfindən subyektləri və su istehlakçılarını təyinatı üzrə su ehtiyatları ilə təmin etmək üçün xam su təchizatını həyata keçirmək məqsədilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə, içməli su təchizatını həyata keçirmək məqsədilə “Azərsu” Açıq Səhmdar Cəmiyyətinə, elektrik enerjisi hasilatı və elektrik stansiyalarının soyuducu sistemi üçün götürdüyü suya görə “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinə, texniki qurğular və avadanlıqlar tətbiq etməklə su götürən digər fiziki və ya hüquqi şəxslərə suyun verilməsi üzrə

## MÜQAVİLƏ
**(nümunəvi forma)**

“_____” ________________ 20____ il

_________________________________________________________________
(su verən təşkilatın adı)

Bundan sonra Müqavilənin mətnində **“İcraçı”** adlanan

________________________________________________________________
(vəzifəsi, soyadı, adı, atasının adı)

şəxsində bir tərəfdən, _____________________________________________
(su istehlakçısının adı)

Bundan sonra Müqavilənin mətnində **“Sifarişçi”** adlanan

_________________________________________________________________
(vəzifəsi, soyadı, adı, atasının adı)

_________________________________________________________________

şəxsində digər tərəfdən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20___ il _________ tarixli ____ nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında sudan ödənişli istifadə Qaydaları”na uyğun olaraq 20____ ildə suyun verilməsi və qəbul edilməsi məqsədilə bu Müqaviləni bağlayırıq.

## Tərəflərin öhdəlikləri

## 1. İcraçının öhdəlikləri:

1.1. su mənbələrinin təsdiq edilmiş limitlərinə və sudan istifadə planlarına əsasən Sifarişçiyə il ərzində (Müqavilə müddətində) aşağıda qeyd edilən qrafikə uyğun su vermək:

**Sifarişçiyə verilən suyun aylar üzrə bölgüsü (min kubmetr)**

| I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | |

1.2. balansında olan su təminatı vasitələrini və onların üzərində olan hidrotexniki qurğuları saz və işlək vəziyyətdə saxlamaq.

**Qeyd.** Təbii şəraitdən asılı olaraq verilən suyun həcmi və müddəti tərəflərin razılığı ilə dəyişdirilə bilər.

## 2. Sifarişçinin öhdəlikləri:

2.1. sudan səmərəli və qənaətlə istifadə olunmasını təmin etmək;

2.2. suyun hər kubmetri üçün müəyyən edilmiş tariflərə uyğun olaraq _____ manat məbləğində haqqı İcraçıya ödəmək.

**Qeydlər:**

1. Sifarişçiyə Müqavilədə nəzərdə tutulan həddən artıq su verildikdə, bu barədə səbəbi qeyd olunmaqla xüsusi akt tərtib olunmalıdır.
2. Müqavilədə qeyd olunanlardan artıq su götürüldükdə, verilən suyun dəyəri müəyyən olunmuş tarifin 1:1 nisbətində ödənilməlidir.
3. Sifarişçi nəzərdə tutulmuş sudan imtina etdikdə, bu barədə Müqavilədə nəzərdə tutulmuş suyun verilməsi tarixindən ən azı 7 (yeddi) gün əvvəl İcraçını xəbərdar etməlidir.

## 3. Müqavilə üzrə qarşılıqlı hesablaşma

3.1. Sifarişçiyə verilən suyun hesabatı hər ay aparılır və İcraçı ilə Sifarişçi arasında müvafiq aktla sənədləşdirilir.

3.2. Sifarişçi verilən suyun dəyərini növbəti ayın 5-dək ödəyir.

**4. Tərəflərin məsuliyyəti**

4.1. Bu Müqavilədə qeyd edilən öhdəliklər yerinə yetirilmədikdə, İcraçı və Sifarişçi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun məsuliyyət daşıyırlar. Bu Müqavilədə qeyd edilən öhdəliklərin yerinə yetirilməməsində inzibati xəta əlamətləri olduqda, İcraçı və Sifarişçi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun məsuliyyət daşıyırlar.

4.2. Müqavilə üzrə yaranan mübahisələr məhkəmə qaydasında həll edilir.

4.3. Müqavilə 2 nüsxədə tərtib edilmişdir, bunlardan biri İcraçıda, digəri isə Sifarişçidə qalır.

4.4. Müqavilənin müddəti:

20____ il "__"_________ tarixindən başlayır;

20____ il "__"_________ tarixində qurtarır.

4.5. Tərəflərin hüquqi ünvanları və hesablaşma hesablarının nömrələri:

**İcraçı:** ____________________________________________________

**Sifarişçi:** __________________________________________________

**İcraçı** **Sifarişçi**

**M.Y.** **M.Y.**

**II. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyi tərəfindən subyektləri və su istehlakçılarını təyinatı üzrə su ehtiyatları ilə təmin etmək üçün xam su təchizatını həyata keçirmək məqsədilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə, içməli su təchizatını həyata keçirmək məqsədilə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə, elektrik enerjisi hasilatı və elektrik stansiyalarının soyuducu sistemi üçün götürdüyü suya görə "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə, texniki qurğular və avadanlıqlar tətbiq etməklə su götürən digər fiziki və ya hüquqi şəxslərə suyun verilməsi üzrə aktın nümunəvi forması**

**İcraçı:** ____________________________________________________

(Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyi)

**Sifarişçi:** __________________________________________________

(su istehlakçısının adı)

____________tarixinə verilmiş suyun həcmi və dəyəri barədə

**AKT**

1. Verilmiş suyun həcmi ____________________________ kubmetr.
2. 1 kubmetr sudan istifadənin tarifi _____________________ manat.
3. Ödəniləcək vəsaitin məbləği _________________________ manat.

**İcraçı:**
**1.** ______________________
**2.** ______________________
**3.** ______________________
**4.** ______________________
**5.** ______________________

**Sifarişçi**
**1.** ______________________
**2.** ______________________
**3.** ______________________
**4.** ______________________
**5.** ______________________

**İcraçı**

**M.Y.**

**Sifarişçi**

**M.Y.**